**UOT 336.74**

# PUL VƏSAİTLƏRİNİN UÇOTU: NƏZƏRİ ƏSASLAR VƏ ƏHƏMİYYƏTİ

**Səbinə MƏMMƏDOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 iyun 2025; çapa qəbul edilmişdir: 4 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 19th of June, 2025; accepted: 4th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *sənaye müəssisələri, pul vəsaitləri, pul vəsaitlərinin ekvivalentləri, nağd vəsaitlər, hesablaşma hesabı, pul vəsaitlərinin hərəkəti*

## Giriş

Müasir bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin dayanıqlı və səmərəli fəaliyyəti onların malik olduğu resurslardan, xüsusilə də maddi və maliyyə ehtiyatlarından optimal istifadə etmələrindən birbaşa asılıdır. Səmərəli istehsal strategiyalarının formalaşdırılması, resurslardan düzgün istifadə və xərclərin rasional idarə olunması hər bir müəssisənin rəqabət qabiliyyətini artırmaqla yanaşı, onun uzunmüddətli inkişafını da təmin edir. Bu baxımdan, müəssisənin maliyyə resurslarının idarə olunması, pul vəsaitlərinin dövriyyəsi və hərəkətinin səmərəli təşkili xüsusi əhəmiyyət daşıyır. Çünki müəssisənin gündəlik fəaliyyətinin təmin olunması və yeni investisiya layihələrinin həyata keçirilməsi birbaşa olaraq maliyyə axınlarının düzgün idarə edilməsindən asılıdır.

Son illərdə sahibkarlığın milli iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə də sənaye və emal sektorlarında geniş vüsət alması, bu sahədə fəaliyyət göstərən müəssisələrin fəaliyyətlərini daha peşəkar səviyyədə təşkil etmələrini, strateji qərarlar qəbul edərkən iqtisadi göstəriciləri nəzərə almalarını və effektiv idarəetmə sistemlərinin tətbiqini zəruri edir. Belə bir şəraitdə müəssisələr arasında birbaşa təsərrüfat əlaqələrinin inkişafı, texnoloji modernləşmə, əmək məhsuldarlığının artırılması və istehsal xərclərinin azaldılması məsələləri gündəmin əsas istiqamətlərindən birinə çevrilmişdir. Xərclərin azaldılması və istehsal proseslərinin daha rasional qurulması yalnız texnoloji innovasiyaların tətbiqi və yeni idarəetmə modelləri ilə deyil, eyni zamanda müasir iqtisadi təhlil və uçot sistemlərinin tətbiqi ilə də sıx bağlıdır. İstehsal xərclərinin (iş və xidmət) azaldılması, məhsuldarlığın artırılması və maliyyə resurslarının səmərəli istifadəsi müəssisənin gələcəkdə bazarda rəqabətədavamlı qalması və mənfəətliliyinin artması üçün əsas şərtlərdən biridir. Bu məqsədlə müəssisələrdə maliyyə və idarəetmə uçotunun düzgün qurulması, iqtisadi göstəricilərin vaxtaşırı təhlili və əldə edilən məlumatlar əsasında optimal qərarların qəbul edilməsi vacibdir.

Bununla yanaşı, müəssisələrin səmərəli fəaliyyət göstərməsi və iqtisadi sabitliyinin qorunub saxlanılması üçün onların nağd pul axınlarının (daxilolmaların və ödənişlərin) dəqiq və şəffaf şəkildə uçotu və təhlili böyük əhəmiyyət kəsb edir. Pul vəsaitlərinin hərəkəti müəssisənin maliyyə sağlamlığının bir göstəricisi olmaqla yanaşı,

---

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* mammadova_707@icloud.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.087**

onun investisiya potensialını, öhdəliklərini yerinə yetirmək qabiliyyətini və əməliyyat çevikliyini də əks etdirir. Məhz bu səbəbdən, müasir müəssisələr üçün pul axını ilə bağlı proseslərin planlaşdırılması, idarə olunması və təhlili yalnız maliyyə mütəxəssisləri üçün deyil, ümumi idarəetmə strukturu üçün də vacib elementlərdən sayılır.

Beləliklə, sənaye müəssisələrinin uğurlu fəaliyyəti və davamlı inkişafı üçün xərclərin azaldılması, pul vəsaitlərinin hərəkətinin optimallaşdırılması və maliyyə resurslarının effektiv idarə edilməsi vacibdir. Bu məsələlərin isə elmi əsaslarla, iqtisadi təhlil və müasir uçot prinsipləri üzərində qurulması müəssisələrin strateji məqsədlərinə çatmasında mühüm rol oynayır. Bu baxımdan tədqiqatın əsas məqsədi sənaye müəssisələrində nağd pul axınlarının idarə olunması və onun səmərəlilik göstəriciləri ilə qarşılıqlı əlaqəsini təhlil etmək, mövcud problemləri aşkara çıxarmaq və onların aradan qaldırılması istiqamətində təkliflər formalaşdırmaqdan ibarətdir.

## 1. Pul vəsaitlərinin uçotunun iqtisadi mahiyyəti və idarəetmədə rolu

Ümumiyyətlə, respublikamızda aparılan iqtisadi islahatlar və müəssisələrə verilən iqtisadi azadlıqlar, onların həm daxili, həm də beynəlxalq bazarlarda qarşılaşdıqları rəqabətlə yanaşı, səmərəli idarəetmə sisteminin yaradılmasının əhəmiyyətini daha da artırmışdır. Buraya elmi əsaslandırılmış mühasibat uçotu çərçivəsinin tətbiqi, müasir yanaşmalardan istifadə etməklə resursların idarə edilməsi və daha səmərəli qərarların qəbul edilməsini asanlaşdıran uçot və təhlil metodlarından istifadə daxildir [5, s. 246]. Müasir şəraitdə fəaliyyət göstərən hər bir sənaye müəssisəsi qarşısında duran əsas vəzifələrdən biri maliyyə resurslarından səmərəli istifadə etməklə rəqabət qabiliyyətini qorumaq və artırmaqdır. Təbii ki, müəssisənin rəqabət qabiliyyəti onun ümumi səmərəliliyini əks etdirir. Bundan əlavə, sənaye müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyətinin müvəffəqiyyəti onun biznes aktivlərinin, xüsusən də dövriyyə aktivlərinin və pul vəsaitlərinin necə səmərəli idarə olunmasından çox asılıdır. Son illər respublikamızda sənaye sahəsinin inkişafına mühüm diqqət yetirilir. Bu səylər nəticəsində xüsusilə qeyri-neft sənayesində iqtisadi artıma nail olunub. Qeyd olunanlar aşağıdakı cədvəl məlumatlarında daha aydın görünür:

***Cədvəl 1.***

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) mülkiyyət növləri üzrə bölgüsü**
***(milyon manat)***

| Göstəricilər | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| *Bütün mülkiyyət növləri üzrə* | 46999,2 | 37269,9 | 55229,1 | 86383,4 | 67296,0 |
| *Dövlət mülkiyyəti* | 8422,4 | 8101,7 9 | 9194,3 | 10670,7 | 11664,4 |
| *Qeyri-dövlət mülkiyyəti* | 38576,8 | 29168,2 | 46034,8 | 75712,7 | 55631,6 |
| *Xüsusi mülkiyyət* | 7200,8 | 7852,0 | 9737,0 | 10379,0 | 10823,5 |
| *Birgə (qarışıq) mülkiyyət* | 940,8 | 972,1 | 1568,1 | 1990,6 | 2263,5 |
| *Xarici mülkiyyət* | 30435,2 | 20344,1 | 34729,7 | 63343,1 | 42544,6 |

**Mənbə:** *Müəllif tərəfindən ADSK-nin məlumatları əsasında hazırlanmışdır [12].*

Cədvəldə öz əksini tapdığı kimi, sənaye məhsulunun həcmi 2019-cu ildə 46 999,2 milyon manata çatmış, 2023-cü ildə isə 67 296,0 milyon manata yüksələrək bu dövr ər-

zində 43,1 faiz artmışdır. 2023-cü ildə qeyri-dövlət sektorunun ümumi sənaye məhsulunun 82%-ni təşkil etməsi, onun davamlı genişlənməsini vurğulayır. Sənaye müəssisələrinin mülkiyyət strukturu da qeyri-dövlət sektorunun xeyrinə dəyişib. Sənaye sektorundakı bu tərəqqi, xüsusilə yüksək likvid aktiv olaraq qalan pul vəsaitlərinin səmərəli istifadəsinin idarə edilməsi və qiymətləndirilməsində mühasibat uçotu və təhlil metodlarının təkmilləşdirilməsinə ehtiyac olduğunu vurğulayır [6, s.123].

Pul vəsaitlərinin və onların ekvivalentlərinin uçotu hesablaşma əməliyyatlarında vəsaitlərin rəvan dövriyyəsinin təmin edilməsində həlledici rol oynayır. İstehsal prosesinin fasiləsizliyi üçün hesablaşmaların vaxtında və dəqiq aparılması vacibdir. Milli iqtisadiyyatın dinamik artımının və onun müxtəlif elementləri üzrə harmoniyanın təmin edilməsində hesablaşmaların səmərəli təşkili ilə yanaşı, pul vəsaitlərindən və onların ekvivalentlərindən düzgün istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir [10, s. 69]. Mülkiyyət növündən asılı olmayaraq, istənilən müəssisə üçün kifayət qədər maliyyə resurslarına malik olmaq, pul vəsaitlərinin hərəkətini səmərəli şəkildə idarə etmək, likvidliyi qorumaq və bu amilləri balanslaşdırmaqla ödəmə qabiliyyətini təmin etmək uğurlu fəaliyyət üçün əsas şərtlərdir [7, s. 210].

## 2. Nağd pul axını anlayışının nəzəri yanaşmalar kontekstində təhlili

Müasir iqtisadi ədəbiyyatda "nağd pul axını" anlayışı nisbətən yenidir. Bu mövzu ilə bağlı müxtəlif araşdırmaların təhlili onun tərifi ilə bağlı geniş perspektivləri ortaya qoyur. Müxtəlif alimlərin nəzəri yanaşmalarının nəzərdən keçirilməsi göstərir ki, elmi ədəbiyyatda pul vəsaitlərinin hərəkəti üçün hamılıqla qəbul edilmiş tərif və ya standartlaşdırılmış təsnifat sistemi yoxdur. Bu, konsepsiyanın daha çox nəzəri cəhətdən aydınlaşdırılmasının zəruriliyini vurğulayır [8, s. 686]. P.Merton pul vəsaitlərinin hərəkətini dinamik göstərici hesab edərək müəyyən dövr ərzində pul daxilolmalarının və xaricolmalarının hərəkəti kimi müəyyən edir. Müəssisəni canlı orqanizmə bənzədən J.C.Van Horne nağd pul axınını onun qan dövranı ilə müqayisə edir. O, pul vəsaitlərinin hərəkətinin davamlı bir proses olduğunu və səmərəsiz idarəetmənin müəssisənin fəaliyyətini poza biləcəyini vurğulayır. R.A.Kostyrko pul vəsaitlərinin hərəkətini iqtisadi proses daxilində zamanla paylanmış daxil olan və çıxan vəsaitlərin həcmi kimi təsvir edir [4, s. 784]. Eyni zamanda, V.E.Leontyev və V.V.Boçarov pul vəsaitlərinin hərəkətini müəyyən bir hesabat və ya planlaşdırılan dövr ərzində müəssisə tərəfindən qəbul edilmiş və xərclənmiş ümumi vəsaitlər kimi müəyyən edirlər [3, s. 400].

İ.A.Blank pul vəsaitlərinin hərəkətini "investora qaytarılan vəsaitlər vasitəsilə investisiyaların təsirini əks etdirən ilkin göstərici" kimi müəyyən edir (9, s. 380). N.N.Selezneva və A.F.İonova zamanla pul vəsaitlərinin hərəkətini təsvir edir və onu metaforik olaraq təşkilatın fəaliyyətini təmin edən "maliyyə dövriyyəsi" adlandırırlar [9, s. 583].

Həm yerli, həm də xarici tədqiqatçıların çoxsaylı elmi işlərini təhlil etdikdən və pul vəsaitlərinin hərəkətinin müxtəlif şərhlərini müqayisə etdikdən sonra bir neçə əsas xüsusiyyəti müəyyən etmək olar:

- Pul vəsaitlərinin hərəkəti pulun hərəkətini təmsil edir;
- Müəyyən dövr ərzində müəssisənin daxilolmalarından və çıxışlarından ibarətdir;
- Müəssisənin əməliyyat fəaliyyəti nəticəsində yaranır.

Beləliklə, müxtəlif müəlliflərin yanaşmaları əsasında ümumiləşdirmə apararaq demək olar ki, nağd pul axını – müəssisənin müəyyən dövr ərzində əldə etdiyi və istifadə etdiyi nağd vəsaitlərin hərəkət trayektoriyasını əks etdirən mühüm maliyyə göstəricisidir. Bu anlayış maliyyə resurslarının dövriyyəsini, idarə olunmasını və onların səmərəli istifadəsini şərtləndirən amillərlə birbaşa bağlıdır.

Müasir dövrdə nağd pul axınının təhlili yalnız mühasibat uçotunun elementi deyil,

həm də maliyyə idarəetməsinin strateji alətinə çevrilmişdir. Bu göstərici müəssisənin likvidlik səviyyəsinin, ödəmə qabiliyyətinin və maliyyə sabitliyinin qiymətləndirilməsində əsas baza rolunu oynayır. Eyni zamanda, o, daxili və xarici istifadəçilər – investorlar, kreditorlar, dövlət orqanları və menecerlər üçün obyektiv informasiya təmin edir.

Bununla yanaşı, nağd pul axını haqqında formalaşan nəzəri baxışlar bir neçə ortaq məqamı əhatə edir:

– Nağd pul axını müəyyən dövr üzrə real pul daxilolmalarının və çıxışlarının cəmini əks etdirir;
– Bu anlayış mühasibat mənfəəti ilə eyni deyil və müəssisənin faktiki maliyyə vəziyyətini daha obyektiv şəkildə göstərir;
– Pul axınları əməliyyat, investisiya və maliyyələşmə fəaliyyətləri üzrə qruplaşdırılaraq ayrıca təhlil olunur;
– Effektiv nağd pul idarəetməsi müəssisənin maliyyə risklərini minimuma endirmək və strateji məqsədlərinə nail olmaq üçün əsas şərtdir.

Bütün bu yanaşmalar onu deməyə əsas verir ki, nağd pul axını müəssisənin "maliyyə həyatı"nın ritmini müəyyən edən əsas göstəricilərdən biri olmaqla yanaşı, onun maliyyə idarəçiliyi strategiyasının formalaşmasında da həlledici rola malikdir. Bu səbəbdən müasir iqtisadi ədəbiyyatda və praktik fəaliyyət sahələrində nağd pul axınının elmi əsaslarla təhlili və düzgün idarə olunması məsələləri aktuallığını daim saxlayır [10, s. 109].

## 3. Sənaye müəssisələrində pul vəsaitlərinin hərəkətinin idarə edilməsi və təhlili

Sənaye müəssisələrində hesablaşma əməliyyatlarının səmərəli təşkili əhəmiyyətli dərəcədə pul vəsaitlərinin və onların ekvivalentlərinin uçotunun necə aparılmasından, habelə hesablaşma-kredit əməliyyatlarının səmərəliliyindən asılıdır. Bu baxımdan nağd və nağdsız əməliyyatların dəqiq, vaxtında və səmərəli sənədləşdirilməsinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Buraya nağd pul hesablaşmalarının müntəzəm inventarlaşdırılması, müəssisənin kassasında, bank hesablarında və digər maliyyə hesablarında pul vəsaitlərinin qalıqlarına nəzarətin aparılması, habelə vəsaitlərin mühafizəsi daxildir. Bundan əlavə, yaxşı işləyən ödəniş və hesablaşma sisteminin təmin edilməsi və əldə edilmiş materiallar, iş və xidmətlər üçün ödənişlərin vaxtında aparılması maliyyə sabitliyi üçün vacibdir [11, s. 46].

Sənaye müəssisələrində pul vəsaitlərinin hərəkətinin idarə edilməsi maliyyə menecerinin əsas məsuliyyətidir və şirkət daxilindəki digər idarəetmə sistemləri ilə sıx bağlıdır. Təcrübədə pul vəsaitlərinin hərəkətinin səmərəliliyinin qiymətləndirilməsi prosesi müxtəlif üsullara əsaslanır. Pul vəsaitlərinin hərəkətinin təhlili bir neçə məqsədlə aparılır [1, s. 20]:

– Şirkətin cari likvidlik və ödəmə qabiliyyətinə nəzarət etmək;
– Vəsaitlərin artıqlığı və ya çatışmazlığının səbəblərini müəyyən etmək;
– Pul vəsaitlərinin daxilolma və xaricolma mənbələrinin və istiqamətlərinin müəyyən edilməsi.

Müəssisənin təşkilati-iqtisadi xüsusiyyətləri onun fəaliyyətini, idarəetmə strukturunu və maliyyə vəziyyətini əhatə edir. Bu xüsusiyyətlər şirkətin fəaliyyət dairəsini, hüquqi strukturunu, bazardakı vəziyyətini, maliyyə resurslarını və əsas iqtisadi göstəricilərini müəyyən edir. Bu təhlilin əsas məqsədi şirkətin maliyyə vəziyyətini qiymətləndirmək və pul vəsaitlərinin uçotu və hərəkəti ilə bağlı məsələləri araşdırmaq, habelə bu problemlərin həlli yollarını tapmaqdır.

Müəssisələrdə pul vəsaitlərinin uçotu üzrə təsərrüfat əməliyyatları müvafiq sənəd-

lər əsasında aparılır. Əsas sənədlərə bank çıxarışları, kassa kitabçaları, ödəniş tapşırıqları, avans hesabatları və digər maliyyə sənədləri daxildir. Bu sənədlər şirkətin maliyyə fəaliyyətini qeydiyyata almaq və izləmək üçün xidmət edir. Maliyyə işçiləri, adətən, şirkətin maliyyə rəhbərliyi tərəfindən nəzərdən keçirilən dövri hesabatlar hazırlayırlar. Bu hesabatlar təşkilatın maliyyə intizamının qorunmasında mühüm rol oynayır.

Pul vəsaitlərinin hərəkətinin uçotu sintetik və analitik növlərə bölünür. Sintetik mühasibat uçotu müəssisənin ümumi maliyyə vəziyyətini əks etdirən irimiqyaslı məlumatları qeyd edir və ilk növbədə balans hesabatlarında əks olunur. Analitik uçot konkret maliyyə əməliyyatlarının daha ətraflı hesabını təqdim edir və müxtəlif hesablar üzrə ətraflı məlumat verir. Sintetik və analitik uçot birlikdə şirkətin maliyyə hesabatlarının dəqiq və şəffaf şəkildə hazırlanmasını təmin edir.

Pul vəsaitlərinin hərəkətinin təhlili iki əsas metoddan istifadə etməklə aparılır: birbaşa və dolayı üsullar. Birbaşa metod pul vəsaitlərinin hərəkətini əməliyyat, investisiya və maliyyə fəaliyyətlərində təsnif edir, şirkətin pul vəsaitlərinə və bank hesablarına daxil olan vəsaitləri və onların necə xərcləndiyini müəyyənləşdirir. Dolayı metod şirkətin xalis mənfəətindən başlayır və amortizasiya, debitor borclarında və kreditor borclarında dəyişikliklərə düzəliş edir. Hər iki üsul şirkətin maliyyə sabitliyini və likvidliyini qiymətləndirmək üçün vacibdir.

Pul vəsaitlərinin hərəkətinin analizi müəssisənin maliyyə dayanıqlığını təmin edən əsas amillərdən biri olmaqla yanaşı, strateji və operativ qərarların qəbulunda mühüm rol oynayır. Bu təhlil nəticəsində müəssisənin gəlirləri ilə xərcləri arasındakı tarazlıq, vəsaitlərin düzgün istiqamətlərə yönəldilməsi və maliyyə resurslarının optimal idarə olunması ilə bağlı obyektiv nəticələr əldə olunur. Xüsusilə sənaye müəssisələrində məhsul dövriyyəsinin böyük həcmi, istehsal proseslərinin davamlılığı və xərclərin yüksəkliyi pul vəsaitlərinə olan tələbatı artırır. Bu səbəbdən nağd pul axınının planlaşdırılması və idarə olunması maliyyə menecmentinin əsas prioritet istiqamətlərindən biri hesab olunur.

Müəssisələrdə pul axını ilə bağlı qərarların qəbulunda əsas göstəricilərdən biri də nağd pul vəsaitlərinin dövretmə sürətidir. Bu göstərici müəssisənin likvid aktivlərinin hansı tezliklə və nə dərəcədə dövriyyəyə daxil olub nəticə verdiyini əks etdirir. Dövretmə sürətinin yüksək olması müəssisənin likvidlik səviyyəsinin və maliyyə idarəçiliyinin yaxşı təşkil olunduğunu göstərir. Əksinə, bu göstəricinin aşağı olması isə vəsaitlərin dövriyyədən uzun müddət kənarda qalmasına və maliyyə risklərinin artmasına səbəb ola bilər. Bu baxımdan, pul vəsaitlərinin hərəkətinə nəzarət yalnız cari fəaliyyətin deyil, həm də müəssisənin strateji inkişafının effektivliyinin təmin edilməsində əhəmiyyətlidir.

Bundan əlavə, sənaye müəssisələrində likvidlik və ödəmə qabiliyyəti göstəriciləri, o cümlədən hazır likvidlik əmsalı, ümumi likvidlik əmsalı və cari nisbət kimi göstəricilər də pul vəsaitlərinin idarə olunmasının keyfiyyətini qiymətləndirmək üçün mühüm vasitələrdir. Bu göstəricilər müəssisənin cari aktivlərinin cari öhdəlikləri ödəmə imkanlarını müəyyən edir. Eyni zamanda, pul vəsaitlərinin sərbəst qalığının təhlili göstərir ki, müəssisənin gündəlik tələbatlarını və təcili maliyyə öhdəliklərini yerinə yetirmək üçün nə qədər likvid vəsaiti mövcuddur. Sərbəst qalığın lazımi səviyyədə saxlanılması müəssisəyə gözlənilməz risklərə çevik reaksiya vermək imkanı yaradır.

Pul axını ilə bağlı düzgün siyasət yalnız daxili proseslərin səmərəliliyini təmin etmir, həm də müəssisənin xarici maliyyə strukturları, o cümlədən banklar, investorlar və digər maraqlı tərəflərlə münasibətlərində etibarlı tərəfdaş kimi çıxış etməsinə şərait yaradır. Maliyyə axınlarının şəffaf və aydın şəkildə təqdim olunması, müəssisənin kredit reytinqinin yüksəlməsi və investisiya cəlbediciliyinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Pul vəsaitlərinin effektiv idarə edilməsi çərçivəsində büdcələşdirmə və likvidlik

planlaşdırılması əsas alətlərdən biri kimi çıxış edir. Müəssisələr maliyyə ili üzrə gözlənilən daxilolmaları və ödənişləri əvvəlcədən proqnozlaşdıraraq nağd pul büdcəsi hazırlayır. Bu büdcə əsasında aylıq və rüblük nağd pul axını təhlil edilir, xərclərin optimallaşdırılması tədbirləri müəyyənləşdirilir və artıq vəsaitlərin qısa müddətli investisiya alətlərinə yönəldilməsi qərarlaşdırılır. Beləliklə, müəssisə öz fəaliyyətində maliyyə boşluqları ilə qarşılaşmır və dayanıqlı inkişafı təmin edə bilir.

Sənaye müəssisələrində pul vəsaitlərinin hərəkətinin idarə olunması çoxaspektli və kompleks yanaşma tələb edən bir prosesdir. Bu prosesin uğurla həyata keçirilməsi üçün müəssisənin mühasibat və maliyyə şöbələrinin koordinasiyalı fəaliyyəti, rəqəmsal texnologiyaların tətbiqi və maliyyə analitiklərinin sistemli təhlilləri vacibdir. Səmərəli nağd pul idarəetməsi müəssisənin ümumi maliyyə sabitliyinin, rəqabət qabiliyyətinin və bazardakı mövqeyinin gücləndirilməsində əsas rol oynayır.

**Nəticə**

Sənaye müəssisələrinin ödəmə qabiliyyəti və likvidlik göstəriciləri mühasibat uçotunda qeydə alınan pul vəsaitlərinin hərəkətinin səmərəliliyi ilə sıx bağlıdır. Nağd pul axınının təhlili şirkətin maliyyə və iqtisadi vəziyyətinin qiymətləndirilməsində həlledici rol oynayır. Müəssisənin ödəmə qabiliyyətini və likvidliyini qiymətləndirmək üçün birbaşa, dolayı və matris yanaşmaları kimi üsullardan istifadə olunur. Həm sintetik, həm də analitik uçot metodları, iqtisadi əməliyyatların düzgün sənədləşdirilməsi ilə yanaşı, şirkətin maliyyə intizamını qorumaq üçün vacibdir. Nağd pulların idarə edilməsi strategiyasının optimallaşdırılması müəssisələrin uzunmüddətli inkişafı və maliyyə sabitliyinin yüksəldilməsi üçün həyati əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində:***

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (n.d.). Sənaye. Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi nəşriyyatı, 2025, 210 s. (https://www.stat.gov.az/)
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti. (n.d.). (www.taxes.gov.az)
3. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 125 s. (https://e-qanun.az/framework/5458)
4. Mahmudov İ., Zeynalov T., İsmayılov N. İqtisadi təhlil. Bakı: Qanun nəşriyyatı, 2010, 240 s.
5. Müslümov S., Kazımov R. Maliyyə təhlili. Bakı: CBS nəşriyyatı, 2012, 263 s.
6. Sadıqov Ə. Mühasibat uçotu. Bakı: Təhsil nəşriyyatı, 2012, 723 s.
7. Səbzəliyev S., Quliyev V. İdarəetmə uçotu. Bakı: Elm və təhsil nəşriyyatı, 2014, 120 s.
8. www.stat.gov.az/source/industry/

***Rus dilində:***

9. Бланк И. Основы финансового менеджмента. Учебник. Москва: Ника-Центр: Издательство «Эльга», 2012, 1374 с.
10. Бочаров В., Леонтьев В., Радковская Н. Финансовый менеджмент. Учебник. СПб.: Издательство «Питер», 2012, 560 с.
11. Костырко Р. Финансовый анализ. Учебное пособие. Харьков: Издательство Фактор, 2013, 512 с.
12. Селезнева Н., Ионова А. Анализ финансовой отчетности организации. Москва: Издательство Юнитидана, 2012, 400 с.

***Резюме***

***Сабина Мамедова***

***Учет денежных средств: теоретические основы и значение***

Успешное функционирование промышленных предприятий в рыночных условиях напрямую связано с эффективным использованием имеющихся у них ресурсов, особенно денежных. В современной экономической системе поддержание финансовой устойчивости и платежеспособности стало одной из главных целей предприятий. Такие факторы, как развитие предпринимательства в промышленной сфере, усиление прямых хозяйственных связей между предприятиями, снижение себестоимости продукции и увеличение прибыли, обусловливают необходимость правильного управления денежными средствами. В связи с этим оптимизация движения денежных средств, его учет и анализ требуют ведения учета и экономического анализа на основе новых, системных принципов. В статье рассматривается ряд теоретических и методических вопросов, связанных с учетом и анализом денежных потоков, со ссылкой на экономическую литературу. Помимо анализа структуры, источников и направлений использования денежных потоков, была проведена оценка влияния управления этими средствами на общие финансовые результаты деятельности предприятия. Особо подчеркивается, что финансовая устойчивость и гибкость предприятия зависят от правильной организации управления денежными средствами. Вместе с тем в статье подробно рассматриваются теоретические аспекты учета и анализа денежных средств на промышленных предприятиях в современных условиях, предлагаются научно обоснованные подходы по повышению эффективности этого процесса. Это также способствует эффективному принятию управленческих решений в бизнесе.

**Ключевые слова:** *промышленные предприятия, денежные средства, эквиваленты денежных средств, наличные деньги, расчетный счет, денежный поток*

***Abstract***

***Sabina Mammadova***

***Cash Accounting: Theoretical Basis and İmportance***

In the conditions of market relations, the successful operation of industrial enterprises is directly related to the efficient use of their existing resources, especially cash. In the modern economic system, maintaining financial stability and solvency has become one of the main goals of enterprises. Factors such as the development of entrepreneurship in the industrial sphere, the intensification of direct economic relations between enterprises, the reduction of production costs and the increase in profits necessitate the proper management of cash. In this regard, the optimization of cash flows, their accounting and analysis require the implementation of new and systematic principles of accounting and economic analysis. The article examines a number of theoretical and methodological issues related to the accounting and analysis of cash flows with reference to economic literature. Along with the analysis of the structure, sources and use of cash flows, the impact of the management of these funds on the overall financial results of the enterprise is assessed. It is especially emphasized that the financial stability and flexibility of the enterprise depend on the correct organization of cash management. At the same time, the article extensively examines the theoretical aspects of cash accounting and analysis in industrial enterprises in modern conditions, and scientifically substantiated approaches are proposed to increase the efficiency of this process. This also supports the adoption of effective management decisions for enterprises.

**Key words:** *industrial enterprises, cash, cash equivalents, cash, settlement account, cash flow*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.